# 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni İl bayramı qeyd olunmuşdur



Qəbələ Rayon İcra hakimiyyətinin və Qəbələ şəhər bələdiyyəsinin təşkilatçılığı ilə "Garden Oteldə" 31 Dekabr-Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni İl bayramı münasibəti ilə şəhid ailələri, qazilər və müharibə iştirakçıları üçün bayram şənliyi təşkil olunmuşdur. Qəbələ Rayon İcra Hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərlərinin iştirak etdiyi tədbirdə öncə Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın işğaldan azad olunması uğrunda şəhadətə yüksəlmiş şəhidlərin əziz xatirəsi 1 dəqiqəlik sükutla yad edilmişdir. Sonra Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev bütün tədbir iştirakçılarını "31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü" və Yeni il bayramı münasibəti ilə təbrik etmişdir. Şəhid ailələrinin üzvləri, qazilər və müharibə iştirakçıları onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

# Regional konfrans

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində keçirilən Şəki-Zaqatala iqtisadi rayonunda peşə təhsilinə olan ehtiyaclar və



dövlət-özəl sektorla əməkdaşlığa dair regional konfransda mərkəzin direktoru Qalib Nəbiyev qonaqları salamlayaraq, Təhsil Mərkəzinin inkişaf tarixi haqqında təqdimatla çıxış etmişdir. Daha sonra Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova, Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru Ceyhun Kərəmov, Dövlət Məşğulluq Agentliyinin Şəki-Zaqatala Regional Məşğulluq idarəsinin rəis müavini Təhsin Hüseyinov, Kiçik və Orta Biznesin İnkişaf Agentliyinin Regional koordinatoru Elburus İsgəndərov və iqtisadi rayondakı peşə təhsil mərkəzlərinin direktorlarının çıxışları dinlənilmişdir. Konfransın əsas məqsədi "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi"nə əsasən, işəgötürənlərin peşə təhsili sisteminə cəlb edilməsi, kadr hazırlığının işəgötürənlərin tələblərinə uyğun aparılması və təhsildə dövlət-özəl tərəfdaşlığı sisteminin həyata keçirilməsi, dövlətin iqtisadi siyasətində sahibkarlığın inkişafının əhəmiyyətini və yaradılan iş yerlərinin səriştəli işçi qüvvəsi ilə təminatı, peşə təhsili müəssisələri ilə dövlət-özəl əməkdaşlığı istiqamətində işəgötürənlərin maraq və öhdəliklərinin müəyyənləşdirilməsidir.

**"Qəbələ"**

# Heydər Əliyevin anım günü






12 dekabr 2023-cü il tarixində Qəbələ Rayon İcra Hakimiyyətinin, YAP Qəbələ Rayon Təşkilatının, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların, eləcə də rayon ictimayyətinin nümayəndələri, həmçinin Qəbələdə keçirilən "Vüqar Həşimov Memorial-2023" şahmat turnirinin rəhbərliyi və iştirakçıları Ulu Öndər Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, abidə önünə gül dəstələri düzərək dahi rəhbərin xatirəsinə böyük hörmət və ehtiramlarını bildirmişlər.

# "Vüqar Həşimov Memorial - 2023" superturniri




8 dekabr 2023-cü il tarixində Qəbələ Heydər Əliyev Konqres Mərkəzində sayca 9-cu dəfə təşkil olunan şahmat üzrə "Vüqar Həşimov Memorial-2023" superturnirinin açılış mərasimi Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Açılış mərasimində çıxış edən Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasəti və idmana qayğının bu gün ölkə prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini qeyd edərək, bu günkü turnirin Qəbələdə keçirildiyinə görə öncə ölkə prezidentinə və əlaqədar təşkilatlara minnətdarlığını bildirmiş, hər kəsə uğurlar arzulamışdır. Azərbaycan Şahmat Federasiyasının prezidenti, Beynəlxalq Şahmat Federasiyasının (FIDE) vitse-prezidenti Mahir Məmmədov "Vüqar Həşimov Memorialı"nın dünya şahmat təqvimində xüsusi yerə malik olduğunu söyləyərək Azərbaycan şahmatının uğurlarının V. Həşimovun adı ilə bağlı olduğunu bildirmiş, "Heydər Əliyev İli" çərçivəsində ölkədə nüfuzlu idman yarışlarının keçirildiyini qeyd etmişdir. Turnirin Təşkilat Komitəsinin rəhbəri, Vüqar Həşimovun atası Qasım Həşimov çıxış edərək yarışda iştirak üçün dəvəti qəbul edən şahmatçılara minnətdarlığını bildirmişdir.

9 dekabr 2023-cü il tarixində Qəbələ Heydər Əliyev Konqres Mərkəzində "Vüqar Həşimov Memorial-2023" superturniri davam etmişdir

10 dekabr tarixində Qəbələ Heydər Əliyev Konqres Mərkəzində "Vüqar Həşimov Memorial-2023" superturniri davam etmişdir. Turnirin üçüncü günündə şahmatçılar sabah keçiriləcək final oyunları uğrunda mübarizə aparmışlar.




Dekabrın 11-də Qəbələ Heydər Əliyev Konqres Mərkəzində beynəlxalq qrossmeyster, Azərbaycanın tanınmış şahmatçısı Vüqar Həşimovun xatirəsinə həsr olunan doqquzuncu superturnirin bağlanış mərasimi keçirilmişdir. Tədbirdə çıxış edən Azərbaycan Şahmat Federasiyasının prezidenti, Beynəlxalq Şahmat Federasiyasının (FIDE) vitse-prezidenti Mahir Məmmədov "Vüqar Həşimov Memorialı"nın əsas məqsədinin görkəmli şahmatçının yaradıcılığını digər zəka sahiblərinə çatdırmaq və təbliğ etmək, gənc idmançılara geniş imkanlar açmaq və uşaqları şahmata cəlb etmək olduğunu vurğulamışdır. Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev turnirin Qəbələdə keçirildiyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə minnətdarlığını bildirmiş, iştirakçılara gələcək fəaliyyətlərində uğurlar arzulamışdır. Bağlanış mərasimində superturnirin baş hakimi beynəlxalq qrossmeyster İlahə Qədimova yarışın gərgin idman mübarizəsi və maraqlı partiyalarla yadda qaldığını qeyd edərək təmiz və ədalətli oyun nümayiş etdirdikləri üçün iştirakçılara minnətdarlığını bildirmişdir. Keçirilmiş yarışda rapid və blits üzrə toplanan xalların cəminə əsasən hindistanlı Vidit Santoş qalib olub. 22 xal toplayan qrossmeyster bütün rəqiblərini qabaqlayıb. Ondan cəmi 0,5 xal az toplayan həmyerlisi Arjun Eriqaisi ikinci yeri tutub. İlk "üçlüy"ü 19 xalla rumıniyalı Riçard Rapport tamamlayıb. Azərbaycan şahmatçılarından ən yaxşı göstəriciyə Rauf Məmmədov imza atıb. O, 18,5 xalla dördüncü pillənin sahibi olub. Eyni xala malik Aydın Süleymanlı beşinci,



hərəyə 18 xal toplayan Teymur Rəcəbovla Şəhriyar Məmmədyarov 6-7-ci yerləri tutub. Sonrakı pillələrdə müvafiq olaraq, 17 xalla niderlandlı Yorden Van Forest, 15 xalla Nicat Abbasov, 10 xalla israilli Boris Gelfand qərarlaşıb. Sonda turnirin Təşkilat Komitəsinin rəhbəri Vüqar Həşimovun atası Qasım Həşimov turnirin kubokunu hindistanlı Visit Santos Qucratiyə təqdim etmişdir. Turnirin iştirakçılarına xatirə hədiyyələri təqdim olunmuşdur. Yarışın yüksək səviyyədə təşkilinə görə təşəkkürünü bildirən Qasım Həşimov turnirin keçirilməsində göstərilən dəstəyə görə hər kəsə minnətdarlığını bildirmiş, iştirakçılara uğurlar arzulayıb, turniri bağlı elan etmişdir.